**UOT 82**

# MUSA YAQUBUN "ÜRƏYİMDƏ YERİN QALDI" KİTABINDA LİRİK OVQAT

**Məxluqə QASIMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 28 mart 2023; çapa qəbul edilmişdir; 25 aprel 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 28th of March, 2023; accepted: 25th of April, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər:** *Musa Yaqub, şeir, poema, lirik ovqat*

## Giriş

Azərbaycan xalq şairi Musa Yaqub 83 illik ömrünə bir çox şeirlər, lirik poemalar sığdırdı. Şairin yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi yer tutmaqla bərabər, onun ölümsüzlüyünün imzasıdır.

Şair ədəbi fəaliyyətə 1957-ci ildə "Azərbaycan" qəzetində çap olunan "iki qəlb, iki dünya" poeması başlasa da, belə deyirlər ki, məktəb vaxtı Sabir adlı sinif yoldaşı Stalinə şeir yazıbmış. Musa Yaqub sinfin əlaçısı idi, amma bu şeir yazmaq məsələsi onu düşündürüb. "Əlaçıyamsa, gərək mən də şeir yazım" deyib və o gündən şeir yazmağa başlayıb. (12, 1)

1957-ci ildən bəri yazdığı şeir və poemaları toplayan şair ilk şeir kitabını "Yarpaqlar oxuyur" adı altında 1966-cı ildə çap etdirir. 2012-ci ilə qədər müəyyən illərdə müxtəlif şeir kitabları çap olunur ki, bunların da sayı 15-ə bərabərdir. 2012-də çap edilmiş sonuncu şeir kitabı olan "Dövrün dəyirmanı" şairin şeir və poemalarından ibarətdir. Bundan başqa, "Mənim kainatım", "Bir sim üstə", "Bu məhəbbət yaşadır məni", "İki qəlbin işığı" və s. Adlı şeir kitabları da mövcuddur. Şairin yaradıcılığında mühüm əhəmiyyətə malik kitablarından biri də "Ürəyimdə yerin qaldı" kitabıdır. Bu kitab şairin 88 şeir və 3 lirik poemalarından ibarətdir.

## Musa Yaqub yaradıcılığında mövzu rəngarəngliyi

Bildiyimiz kimi, yazıçının, şairin silahı onun qələmidir. Şairin qüdrəti də bu "silah"-dan necə istifadə etdiyindən asılıdır. Musa Yaqub yaradıcılığına baxarkən biz onun öz "silah"ından istər ictimai, istər vətənpərvər, istər peyzaj, istərsə də məhəbbət lirikasında yaratdığı nümunələrdə kifayət qədər dolğun istifadə etdiyini görürük. Şairin yaradıcılığı mövzu baxımından rəngarəngdir. Lakin hər bir şairin ədəbi nümunələrində xüsusi bir mövzunun qırmızı xətt kimi keçdiyi kimi, Musa Yaqub lirikasında təbiət mövzusu, əlxüsus da ağacların tərənnümü özünə geniş yer tapmışdır. Bu o demək deyil ki, ədibin yaradıcılığında digər mövzulara etinasız yanaşılıb. Əksinə, biz onun şeirlərini oxuduqda hər bir mövzuya hakimliyini və doğmalığını hiss edirik.

İstənilən ədibin, o cümlədən Musa Yaqub yaradıcılığından danışarkən ilk növbədə ona təsir edən əsas amil – mühiti, dövrü nəzərə alınmalıdır. Musa Yaqub yaradıcılığının mühüm bir qismi sovet ideologiyası təsiri altında yaranmış, az bir hissəsi isə müstəqillik dövrünə təsadüf etmişdir. Bu baxımdan onun yaradıcılığına hər tərəfli nəzər saldıqda,

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* mxqasimova@gmail.com

təbii olaraq, hər iki təsiri görürük.

**Musa Yaqub yaradıcılığında peyzaj lirikası**

Ədəbiyyatçılar və tənqidçilərin əksəriyyəti Musa Yaqubun yaradıcılığının əsas mövzusunun təbiət olduğunu söyləyirlər. Çox az şair tapılar ki, təbiəti, təbiətin əsrarəngiz gözəlliklərinin təsvirini şeir dilinə çevirməmiş olsun. Söz sənəti, incəsənət, poeziya üçün əhəmiyyəti olan bu mövzuya Musa Yaqub fərqli yanaşmış, qeyri-adi, bənzərsiz sənət nümunələri yaratmışdır. İlk qələm təcrübələrində təbiət təsvirləri haqqında edilən ümumiləşdirmələr, müşahidə qabiliyyətinin güclülüyü, gördüklərini olduğu kimi poeziya dilinə çevirmək diqqəti cəlb edən məqamlardandır.

Musa Yaqubun poeziyasının ilk mərhələsində onu həvəsləndirən, yol açan həmkarlarından biri də Məmməd Rahim olmuşdur. M.Rahim Musa Yaqub yaradıcılığı haqqında bu sözləri deyib: "Musa Yaqub təbiətin incəliklərini öyrənməyə çalışır, qalın meşələrin təravətini, quşların nəğməsini, bulaqların pıçıltısını, suların xoş səsini şeirə gətirir. Musa Yaqub təbiətin qoynunda hər şeyi canlı təsvir edir". (7, 1)

Musa Yaqubun şeirlərində insanla təbiət daim vəhdətdə təsvir edilir. Təbiət yalnız fon kimi yox, təhkiyənin aktiv iştirakçısı kimi çıxış edir. Varlığı əks etdirmə növü kimi peyzaj şairin əsərlərinə bir təbii çalar, özünəməxsusluq və fəlsəfi axar qatmış olur. Şairin yaradıcılığı haqqında onu da qeyd etmək lazımdır ki, şair mövzusundan asılı olmayaraq təbiətə müraciət edir. Şair üçün təfəkkür forması olan təbiəti onun poeziyasından çıxarsaq, heç bir mənası olmayan, poetik çalarları sönük bir nəsnəyə çevrilər.

Musa Yaqubun təbiət təsvirli əsərləri arasında "Təbiət baharın nəğməsində ram", "Günəşin son şüası və qızıl yarpaqlar, "Bu payız", "Bu göy qurşağının" və s. kimi şeirlərinin adını çəkmək olar.

*Təbiət baharın nəğməsində ram,*
*Bulaqda nanətək titrədi misram.*
*Min əldə əridi gör neçə mizrab,*
*Bir telin sirrini bilənə kimi.*

*Əllərim yetməyən hansı diləkdi,*
*Bircə təbəssümün mənə köməkdi.*
*Tələsən bənövşə bilsən nə çəkdi*
*Yaz onun hayına gələnə kimi.* (2, 31)

İlhamı dəniz kimi çağlayan, ilhamını ana təbiətdən alan, ətrafdakı hadisələrə öz münasibəti, öz mövqeyi ilə yanaşan Musa Yaqub "Leyləklərin çöp yuvası" şeirində belə deyir:

*Leyləklərin çöp yuvası boş qalıb,*
*Bahar gedib, payız gəlib, qış qalıb.*
*Göy çəməndə ocaq yanıb, daş qalıb,*
*Bu dünyanın qara daşı göyərməz.* (2, 31)

Yeri gəlmişkən, onu da qeyd edək ki, bu şeir "Ürəyimdə yerin qaldı " kitabında "Leyləklərin çöp yuvası" adı ilə yazılıb, lakin şeir daha çox "Bu dünyanın qara daşı göyərməz" adı ilə məşhurlaşıb.

Dəyərli qələm adamlarından olan Qorxmaz Şıxalıoğlu Musa Yaqubla müsahibəsində bu şeirin yaranma tarixi ilə bağlı sual vermişdir. Şair bu sualı belə cavablandırmış-

dır: "Tarixi var. Onda mən Əhmədlidə yaşayırdım. Mən yaşayan evin qarşısında böyük əhəng karxanası vardı. Onun şöləsi düşürdü bizim pəncərəmizə. Hər gecə səhərə yaxın oyananda durub ona baxırdım. Heç daşı da yandırarlar? Heç daş da yanar? Daşı o əzabla yandırırdılar. İlahi, bu nə olan şeydir? Əgər daşı yandırıb əhəngə döndərə bilirlərsə, demək dünyada hər şeyi yandırmaq olar. "Əhəng daşı" şeirini yazdım". ( 11, 1)

Zənnimizcə, bu şeir haqqında deyilən fikirlərin ən gözəli elə şairin öz sözləridir. Musa Yaqub bir müsahibəsində – "Musa müəllim, nə düşünürsünüz, göyərəcəkmi bu dünyanın "qara daşı" sualına belə cavab verir: – Daş, dəyirman, ağac... bunlar mənim obrazlarımdır. O qara daş əslində insan taleyidir. Göyərməyəcək, mümkün də deyil. O elə bir daşdı ki, nə qədər ümidlə göyərtsən belə, göyərməyəcək. Amma insanın ümidi özünə yetər. O qara daşı danışdıran da, göyərdən də, onu taleyinə yazan da elə insan özüdür. Heç eşitmisən deyir, ürəyimə daş bağlamışam? Yəni o ağırlıq həmişə səninlə gedəcək. Bu, ömürdür, gündür. Onu biz göyərdə bilərik, ümidimizdə, taleyimizdə, yeni məhəbbətimizdə. Bəlkə özümüzünkü olmaz, amma balalarımızınkı olar. Bəlkə də qara daşın altında olan toxumları cücərtməyə ümidlərimizin gücü yetər. Belə bir şeir var, bir qara daş gəlib düşür çəmənə, o çiçəklər göyərib, qara daşı itirir. Deməк ki, o daş göyərmədi, amma o çəmən göyərdi". ( 8. 1)

Musa Yaqub yaradıcılığında tanış olduğum ilk şeirlərdən biri də "Atamın xatirəsinə" şeiridir. Musa Yaqub bu şeiri atasının ölümündən otuz il sonra (1974) yazmışdır. Şeiri yadıma salanda gözümün önündə üstünə qar yağmış bir məzar canlanır. İlk qar yağan bir gündə şair anasını illər öncə vəfat etmiş atası ilə danışan görür. Bu hadisədən sonra Musa Yaqub sözü gedən şeiri yazır. Şairin yaratdığı obraz otuz il əvvəl xatirində olan, üzərinə qar yağmış bir ata obrazı idi. Atası ilə bağlı xatirələri bir araya gətirməyə çalışan şair içindəki ata obrazını yaradır. Musa Yaqubun atasına həsr etdiyi elegiyası onun ümumi poeziya harmoniyası ilə səsləşir. Bu səbəbdəndir ki, şeir oxucuların hər biri tərəfindən aydın başa düşülür və onları duyğulandırır. Şair burada özündən də danışır, məzarın üstünə yağan qar şairdə qəribə hislər oyadır, eyni zamanda təbiət təsviri-şairi həzinləşdirən mənzərələrə də yer verilmişdir. Sanki yağan qar şairin xəyalında canlanan atalı günlərinin üstünə yağırdı. Barəsində danışdığım "Atamın xatirəsinə" şeirində atanın doğma evində hələ də qalan xatirələrindən söz açılır.

*Qar yağırdı atamın da məzarına,*
*Birinci qar...*
*Ya atamın buz bağlamış barmaqları,*
*Ya qar basmış*
*Çılpaq gilas budaqları-*
*Nə fərqi var?*
*Asılqanda atamın boş pencəyinə,*
*Samanlığın qapısında düşüb qalan*
*Dəryazının əlcəyinə qar yağırdı.* (2,19)

**"Ürəyimdə yerin qaldı" kitabında vətən mövzusu**

"Ürəyimdə yerin qaldı" kitabı müstəqillik dövrünün məhsuludur, lakin içində toplanılmış şeirlərin çox hissəsi 70-80-ci illərdə qələmə alınmışdır. Hər nə qədər buradakı şeirlər sovet ideologiyası hakim olan vaxtlarda yazılsa da, müxtəlif şeirlərdə şairin azadlıq istəyini bu və ya digər formada görürük.

Şairi hər zaman vətənin azadlığı düşünmüş, Azərbaycanın sovet əsarəti altında qalması onu narahat etmişdir. Bunu da şeirlərində müəyyən formalarda dilə gətirmişdir. Belə şeirlərindən biri də "Koroğlu üverturası"dır. Bu şeirdə azadlıqdan bəhs edən şair, insanlara müstəqillik uğrunda ölümə belə mərdanə baxmalı olduqlarını, yenidən qalxıb

əsarət zəncirlərini qırmalarını kəskin formada ifadə etmişdir:

*Ox atıb, qan töküb, ölüm saçmadan,*
*Həqiqət yolundan kənar qaçmadan,*
*Arxaya baxmadan, heç ləngimədən,*
*Böyük azadlığa qarşı yol gedən*
*Bir ali məqsəddir, bir ülvi çağrış,*
*Ən oldu şimşəkdir, ən gürşad yağış*
*Koroğlu Üverturası*

*Ən uca zirvədir ən ulu məslək*
*Həm də bu məsləkdən geri dönməmək.*
*Ölümün gözünə mərdanə baxmaq,*
*Yenidən göyərmək, yenidən qalxmaq,*
*Azadlıq yolunda çarpışmalardır*. (2, 6)

"Ürəyimdə yerin qaldı" şeirlər kitabında Musa Yaqubun çoxsaylı ictimai şeirlərini görürük. Bu şeirlərə nəzər saldıqda, şairin ətrafda baş verən hər bir mənfiliklərə münasibətini, onun qəlbini ağrıdan məsələləri duyuruq. Ayrı-ayrı şeirlərində cəmiyyətin, onu əhatə edən ətraf-aləmin ictimai məsələlərinə toxunan şair, bunu mükəmməl bədii təsvir və ifadə vasitələrindən istifadə edərək əks etdirmişdir. İctimai şeirlərindən xüsusi yer tutanlarından biri də "Dünya daha bizim üçün neyləsin" şeiridir:

*Dəryasına balıq verib qırmışıq,*
*Çöllərinə turac verib, vurmuşuq.*
*Qalanların çələsini qurmuşuq,*
*Dünya daha bizim üçün neyləsin.*

*Özümüzçün yaratmışıq bu dərdi,*
*Sərhədləri yolumuzda sipərdi,*
*Bölən olsa havasını bölərdi,*
*Dünya daha bizim üçün neyləsin.*

*Nə Günəşin, nə Yerindir bu illər*
*Qalx göydən bax, toz qoparır bu millət;*
*Nə vurhavur, nə qiyamət, nə zillət!*
*Dünya daha bizim üçün neyləsin*. (2, 9)

**Şairin yaradıcılığında "Cənub" mövzusu**

Azərbaycan poeziyasının 60-cı illər mərhələsinin əsas mövzularından biri də Cənub mövzusu idi. İstər Cənubi Azərbaycanda ,istərsə də Şimali Azərbaycanda poeziya cəbhəsində Mədinə Gülgün, Əli Tudə, Balaş Azəroğlu, Məmməd Araz, Sabir Rüstəmxanlı, Nəriman Həsənzadə və digərlərinin timsalında azadlıq və demokratiya uğrunda mübarizə aparılırdı. Bu mövzuda yazılan şeirlərdə Araz bir obraz, simvolika səviyyəsinə yüksəlmişdi. (11, 495) Musa Yaqub yaradıcılığında da Cənub, xüsusən də Araz mövzusuna toxunan misralar görünməkdədir.

Şairin "Ayrılıq" adı altında yazdığı şeiri ilk baxışda sevgi şeirinin nümunəsinə oxşasa da şeirin sonlarına doğru onun çatdırmaq istədiyi əsas məğzi görürük. O belə deyir:

*Bütün ayrılıqların*
*Baş açdım qılığından*

*Heç ayrıla bilmədim*
*Araz ayrılığından.* (2, 7)

Gördüyümüz kimi, mütəfəkkir şair Azərbaycanın güneyli-quzeyli olmasına ürək ağrısı ilə qeyd etmiş, buna ən böyük, çözülməz bir ayrılıq kimi yanaşmışdır.

1990-cı il baş vermiş 20 Yanvar faciəsi də Musa Yaqubun yaradıcılığından yan keçməmişdir. Həmin ilin yanvar ayı Azərbaycan tarixində ən faciəvi məqamlardan biri olmuş, tarixə qanlı hərflərlə yazılmışdır. Bir evdən, bir yuvadan qopan oğullar, qızlar yalnız bir ailənin deyil, bütün məmləkətin, yurdun şəhid övladlarına çevrildilər.

Azərbaycan ədəbiyyatında, ümumiyyətlə türk dünyasında şəhidlik mövzusunun böyük bir yeri vardır. Şəhidlik missiyasının vətən, millət, xalq uğrunda gedən istiqlal mübarizəsi ilə sıx bağlılığı olmuşdur. 20 Yanvar hadisələrinin ədəbiyyata gəlməsi elə həmin günlərdən başlamışdı. Ürəyi sözlə dolu olan şairlər bu haqsızlığa dözməmiş, bütün xalqa qarşı edilmiş bu vəhşilik onları ayağa qaldırmışdı. Elə Musa Yaqubun " Şəhidlərə bahar salamı" da bu ərəfədə yazılan şeirlərdən idi.

*Şəhidlərim!*
*Elimizə sizsiz gələn*
*İlkin bahar nəğməsindən*
*Torpağınız isindimi?*
*Göyümüzdən durna keçir*
*Məzarınız diksindimi?*
*Bu sədanın sizə gəlib*
*Çatmazından-çatarından*
*Salam olsun!*
*Göyümüzdən–*
*İlkin durna qatarından*
*Salam olsun!*
*Nanə-nanə gözü dolan*
*Özümün qəm payındayam;*
*Öz başımın hayındayam-*
*Şəhidlərim!*
*Siz üzrlü bilin məni...* (2, 48)

Şeirdə sözü gedən müsibətdən doğan bir matəm havası var. Şair qarlı qışdan sonra baharın gəldiyini şəhidlərimiz görə bilməsələr də, onlara salam göndərməyi özünə borc bilir. Baharın gəlişi ilə şəhidlərin uyuduğu torpağın isindiyini duyan şair sanki bu yolla mənəvi rahatlıq tapır. Ruhu göylərə ucalan şəhidlərimizə durna qatarlarından salam olsun deyən Musa Yaqub sanki onlara baş verən ən xırda hadisədən də xəbər vermək istəyirdi.

20 Yanvar hadisələrindən sonra xalqımız daha bir faciə ilə üzləşir, həmin ilin fevral ayında Xocalı faciəsi baş verir. Təəccüblü deyildir ki, şair son misralarda "özümün qəm payımdayam, öz başımın hayındayam" deyərək, şəhidlərdən üzr istəyirdi.

**"Ürəyimdə yerin qaldı" kitabında sevgiyə münasibət**

Hər bir şairin yaradıcılığında sevgi şeirləri xüsusi yer tutur. Musa Yaqub da sevgi şeirlərinin ən gözəl örnəklərini yaratmışdır. Bu şeirlərin obyekti real gözəllərdir. Dünyəvi eşqi ən səmimi misralarla yazıya alan ədib, sevgini ali bir hiss kimi qiymətləndirmiş, bəzən kövrək notlara toxunaraq aşiqin çəkdiyi cəfaları, eşqin verdiyi iztirabı tərənnüm etmişdir.

Musa Yaqub qələmi sanki fırça əvəzinə işlədərək, biri birindən gözəl poetik lövhələr yaradır. Şair məhəbbəti, mərhəməti, ədaləti, insani keyfiyyətləri fərqli rənglərin

vəhdətində görür. Musa Yaqub öz əsərlərində sözlərdən möcüzələr yaratmaq üçün istifadə edirdi də deyə bilərik. Bu da ancaq əsl şairlərdə özünü göstərə bilər. Şairin şeirlərini oxuyarkən dərin düşüncələr, saf duyğular dənizindən keçirsən.

Musa Yaqubun sevgi şeirlərindən biri də "Onda biləcəksən" şeiridir. Saf məhəbbətdən söz açılan şeir mövzusuna görə digər aktual olan əsərlərini kölgədə qoymur. Əksinə, belə şeirlər göstərir ki, Musa Yaqub, həqiqətən də, məhəbbət şairi, təbiət şairi, ülviyyət şairi, bir sözlə, dahi bir şəxsiyyətdir.

Fəridə Rəhimli bu şeirə məhəbbət mövzusundan çox bir şairə vaxtında dəyər vermək mövqeyindən yanaşmış və bu sözləri yazmışdır: "Deyir, möcüzə gözləmək əvəzinə ətrafınızdakı möcüzələrin fərqinə varın. Doğrudan da, ətrafımızda o qədər gözəlliklər var ki, lazımsız səbəblərin onları ört-basdır etməsinə, üstələməsinə izn veririk, görməzdən gəlirik, lazımi qiymətini vermirik, varlığına şükür etmirik və itirəndən sonra qədrini bilirik ki, o zaman da çox gec olur..." (10, 1)

*İndi nazın böyük, ürəyin aram,*
*Mən də sənin üçün belə qalmaram.*
*Bir də görərsən ki, bir ərk yerin yox,*
*Qalmısan neçə yad baxışın altda.*
*Qəfil görəcəksən çətirin də yox,*
*Əsirsən bir qərib yağışın altda.*
*Günəşdə üstünə kölgə salan yox,*
*Tənhasan, amma heç yada salan yox.*
*Sönüb səndən ötrü o isti ocaq*
*Onda biləcəksən mənim sevgimi,*
*Biləcəksən, o da çox gec olacaq.* (2, 93)

"Musa Yaqub bu şeirdə sevginin alçala biləcəyi bütün yolların qarşısına daş diyirləməyə çalışır. Sevgi acı sözlərlə, qəbahətlə, bəhanəylə, yolun harasa dirənməsi ilə alçala bilər. Şair bütün bunları sadalamaqla tərəflərin – sevənlərin qanqaralıq, əbədi düşmənliklə nəticələnəcək ayrılığının qarşısını kəsir, onlara daha münasib, daha rahat ayrılmağın yollarını göstərir. Onun nəzərində, ayrılıq "Buluddan ayrılan damcı" misalı olmalıdır. Buluddan damcının ayrılması təbii prosesdir, həmişə olub, insanın insandan ayrılması da daim başa gələ bilən aqibətdir. Yəni müəllif göstərir ki, buluddan damcı ayrıldığına görə heç nə tərsinə dönmür dünyada, insan insandan ayrılanda da belə olmalıdır, aləmi bir-birinə vurmağa ehtiyac yoxdur". (6, 1)

**Şairin poema yaradıcılığı**

Indi isə Musa Yaqubun poema yaradıcılığına keçid alaq. Şair, demək olar ki, yaradıcılığı boyu poema janrına müraciət etmişdir. Poemalarının əksəriyyəti lirikdir və poeziyanın ənənəvi mövzuları ilə sıx bağlıdır. "Ürəyimdə yerin qaldı" kitabında isə şairin üç poeması yer tutmaqdadır: " Qırqovulam, təkəm mən", "Dəyirman", "Babadağın ağ dumanı".

Birinci "Dəyirman" dan başlayaq. Bu poemanın yazılması şairin Xaqani sevgisi ilə sıx bağlıdır.

*Oxşayır kündə ayağımda dəyirman daşına,*
*Qanlı göz yaşımla işlər bu dəyirmanım mənim.* (2, 122)

Yuxarıdakı beyt Xaqaniyə aiddir və poemanın açar məqamı hesab olunur. Şair üçün bu mövzu çox əhəmiyyətli olmuşdur, bu bizə eyni adlı şeirlərindən də məlumdur. Şair

dəyirmanı təkcə taxılı kəpəyə, una çevirən daşlar kimi görmürdü. Dəyirmanın fırlanan çarxları bir-birini əvəz edən zamanələrə oxşayırdı. Elə poemada Xaqaniyə olan müraciət hissəsində bunu görə bilərik:

*Dayan görüm, ey Xaqani,*
*Sən nə əcəb oturmusan dəyirmanda?*
*Yoxsa, şair, uduzmusan*
*Zəmanəylə toqquşmada*
*...Yoxsa şair*
*Cəngə girib dövran*
*Uduzmusan bu üsyanda?* (2, 122)

Poema başdan sona Xaqaniyə müraciətlə yazılıb desək, yalan olmaz. Şair poemada kəndlərində bir qış güclü qar yağdığını, hər yerin buz bağladığını xatırlayır. Hava o qədər soyuq idi ki, dəyirman da donmuşdu. 9 yaşlı Musa da yamaqlı çarıqları ilə kənd camaatına qoşulub uzaq bir yerdə olan dəyirmana yollanmışdı. Dəyirmanda bir qoca kişi onu içəri çağırır, ununu üyüdür və bu boranın bitəcəyini ona deyir. Bunları xatırlayan şair yenə Xaqaniyə müraciət edərək dəyirmandakı qocanın o olduğunu deyir.

*Bu dağlarda qanadlanıb quş olmuşam*
*Yenə gəlib sən işlədən*
*Dəyirmana tuş olmuşam.* (2, 132)

Musa Yaqub üçün dəyirman fasiləsiz olan həyata bənzəyirdi, sanki dəyirman da həyat qədər əbədi idi. Şair deyir ki, nə qədər müasir dəyirmanlar yaransa da, biz yenə bu köhnə dəyirmana gələcəyik. Hücrəyə bənzətdiyi bu dəyirmana ibadətə gələcəyini, daha nələr-nələr öyrənməyə, soruşmağa, ibrət dərsi götürməyə gələcəyini deyir. Sanki dəyirmanın fırlanan ağır çarxları bir-birini əvəz edən dövranlar kimi mənalandırılır.

*Ağır daşlar yandı,*
*Fırlat.*
*Bu çərxi-dövrandı*
*Fırlat.* (2, 135)

Şairin növbəti poeması "Qırqovulam, təkəm mən" poemasıdır. Təbiət şairi adlanan biri ola bilməzdi ki, peyzaj mövzulu poema yazmasın." Qırqovulam, təkəm mən" poeması da belə əsərlərindəndir. Şair poemanı qırqovulun dilindən yazılmış kimi qələmə almışdır. Qırqovullar meşələr, bulaqlar, çiçəklər içərisində yaşayırdı. Günəşin şəfəqlərinin qırqovul quyruğunda bərq vurmasından əsərdə poetik bir dillə söz açılır. Bir gün yırtıcı yenot ana qırqovula hücum edir və balası yetim qalır. Sonra bala böyüyür, özü ana olur, amma o da təlaş içərisindədir, balalarını itirəcəyindən qorxur. Qırqovulun arzusu meşədə azad uçmaq, azad nəğmə oxumaqdır.

*Axı, niyə bu dərdi*
*Gizli-gizli çəkəm mən?!*
*Oxuyum ki, yalqız am,*
*Qırqovulam, təkəm mən...* (2, 121)

"Babadağın ağ dumanı" poemasının mövzusu şairin doğma rayonu olan İsmayıllının Lahıc kəndində yerləşən Babadağ və ya Həzrət Baba ziyarətgahı adlanan yer ilə

bağlıdır. Poemada Həzrət Baba adlı birinin Babadağın ətəyində yaşadığı deyilir. İnsanlar Həzrət Babanın yanına gələrək, selin hər yeri basdığını, əkin yerlərinin zay olduğunu deyib kömək istəyirlər. Həzrət Baba bilir ki, bu işləri görən şeytandır. O dağa qalxır şeytanı öldürə bilməsə də, dağ keçisi və maralların köməyilə onu qovur, dərin bir dərəyə salır. İnsanlar həmin gündən bəri o dərəyə daş atıb, şeytanı daşlayırlar. Sonra quşlar dən gətirərək Həzrət Babaya toxum səpməyə kömək edirlər. Həzrət Baba da çıxdığı həmin zirvədə yaşayır və orda dəfn edilir.

**Nəticə**

Musa Yaqub yaradıcılığına nəzər saldığımız zaman onun ədəbi irsinin rəngarəngliyi, şeirlərinin sadə və axıcı dili, mövzu dairəsinin genişliyi özünü göstərir.Poeziya aləmində öz sözünü demiş ədib "Ürəyimdə yerin qaldı" kitabında lirik şeir və poemaları ilə oxucularının qəlbini fəth edir. Kitabda şairin sevgi, vətənpərvərlik, ictimai şeirləri, həmçinin poemaları yer almışdır. Şeirlərə nəzər saldığımız zaman şairin bütün mövzulara yaxından bələdliyini görməmək mümkün deyil. Məqalədə bunların təhlili zamanı şairin qələmə aldığı hər sətirdə sevgi, səmimi duyğular, təbiət eşqini duyuruq. Təbiət vurğunu, qəlbi sevgiylə dolub-daşan Musa Yaqub bu eşqini hər misra daxilində bu və ya digər formada göstərir. Ümumi olaraq bunu deyə bilərik ki, dəyərli şairin qələminin məharətini istənilən mövzuda (peyzaj lirikası, məhəbbət, ictimai-siyasi) görürük və hər bir nümunə təqdirəlayiqdir.

**ƏDƏBİYYAT**


1. Bağıyev F. Durum gedim eşqimgilə. Bakı: Şərq-Qərb, 2021, 252 s.
2. Yaqub M. Ürəyimdə yerin qaldı. Bakı: Gənclik, 1992, 168 s.
3. Əhmədov B. XX yüzil Azərbaycan ədəbiyyatı. Bakı: Elm və Təhsil, 2015, 502 s.
4. Milli poeziyamızın göy qurşağına çevrilən şair: metodik vəsait, tərtib edən: R.Məmmədli; ixtisas redaktoru və buraxılışa məsul Ş.Qəmbərova, Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017, 33 s.
5. Abdulla K. Musa Yaquba sevgi və iztirabla // Ədəbiyyat qəzeti, 8 may 2021.
6. https://qafqazinfo.az/news/detail/musa-yaqubla-bagli-bilmedikleriniz-ilk-defe-oxuyacaqsiz-247899?sa=X&ved=2ahUKEwj1nu3f7JjnAhUx2aYKHXCHBNQ4ChAWMAl6BAgDEAE
7. https://qafqazinfo.az/news/detail/basimla-yox-ureyimle-dusunurem-deye-edebiyyatin-musasi-247643
8. https://news.day.az/culture/387700.html
9. https://525.az/?name=xeber&news_id=79393
10. https://www.adalet.az/az/writers/detail/-bagishla-musa-yaqub-152713
11. https://525.az/news/51381-musa-yaqub-poeziyasinda-zaman-anlayisi
12. https://kulis.az/xeber/tarix/Seir-yazmaga-Stalin-gor-basladi-evli-ola-ola-bir-qadina-vuruldu-arvadi-sevgilisin-yazdigi-seirlri-gizli-oxudu-colorredMusa-Yaqubun-nagil-kimi-hyaticolor-37567


***Summary***

***Makhluga Qasimova***

***Lyrical Mood in Musa Yaqub's Book "There's a Place Left in My Heart"***

The article examines the creative path of Musa Yagub, who has an exceptional role in Azerbaijani literature. The poet, who started his literary work in 1957, has left an indelible mark on our literary history with his poems, poems, and books. The light of two hearts" etc. A book of poems is available. We will talk more about the poet's poems in the book "There is a place in my heart" and about the topics that these

poems were written about and which the poet addressed in his work.

First of all, let's talk about the landscape lyrics that caused Musa Yaqub to be called a "nature poet". It was not at all surprising that the poet who grew up in a corner rich in the beauty of our nature wrote such beautiful poems. The article talks about the poems "Nature calm in the song of spring", "Storks' nest", and the poet's thoughts about these poems. Then, looking at the poet's personal life, the poem "In memory of my father" was discussed. In which the poet sees his mother talking to his father, whom he lost many years ago, and as a result of this, this poem appears.

Although the book "There is a place left in my heart" was written during the Soviet rule, we can see the poet's desire for freedom in each of his poems, openly or covertly. One of his poems is "Koroglu's Overture". We can see the poet's struggle for freedom in this poem. Moving on to this topic, it is appropriate to talk about the poet's poems with social themes. For example, we can mention the name of the poem "What will the world do for us?" The theme of the South, which is closely related to Musa Yaqub's public poems, is one of the main themes in the poet's work. The poet, who wants to see the North and the South whole, expresses this in the poem "Separation". While talking about the interconnectedness of the topics, let's continue this sequence and talk about the poem "Spring Greetings to the Martyrs", which tells about the events of January 20. Thus, the topic of martyrs runs as a red line in our poetry and is reflected in the poet's creativity. In the mentioned poem, the martyrs are remembered in deep sorrow.

Finally, let's talk about Musa Yaqub's love poems, which are an epic of languages. Among his poems of this kind, the poem "Then you will know" is one of the most coherent poems that speaks for itself. Here, the poet complains that his appreciation is late. I would say that we should appreciate all the poet's poems and creations, and teach them to the future generations by reading and studying them, and we should keep the poet's immortality alive.

***Key words:*** *Musa Yagub , lyrics, poem, lyrical song*

***Резюме***

***Махлуга Гасымова***

***Лирическое настроение в книге Мусы Якуба "В моем сердце осталось место"***

В статье рассматривается творческий путь Мусы Ягуба, которому принадлежит исключительная роль в азербайджанской литературе. Поэт, начавший свою литературную деятельность в 1957 году, оставил неизгладимый след в нашей литературной истории своими стихами, поэмами, книгами «Свет двух сердец» и др. Имеется книга стихов. Подробнее о стихах поэта мы поговорим в книге «Есть место в моем сердце» и о темах, о которых написаны эти стихи и к которым обращался поэт в своем творчестве.Прежде всего, поговорим о пейзажной лирике, из-за которой Мусу Якуба называли «поэтом природы». Совсем неудивительно, что поэт, выросший в богатом красотой нашей природы уголке, писал такие прекрасные стихи. В статье говорится о стихотворениях «Природный покой в песне весны», «Гнездо аистов», а также о размышлениях поэта об этих стихотворениях

Затем, глядя на личную жизнь поэта, обсуждалось стихотворение «Памяти моего отца». В котором поэт видит, как его мать разговаривает с отцом, которого он потерял много лет назад, и в результате этого появляется это стихотворение.

Хотя книга «В моем сердце осталось место» была написана во времена советской власти, стремление поэта к свободе прослеживается в каждом его стихотворении, явном или скрытом. Одно из его стихотворений – «Увертюра Кероглу». В этом стихотворении мы видим борьбу поэта за свободу. Переходя к этой теме, уместно поговорить о стихах поэта с социальной тематикой. Например, можно упомянуть название стихотворения «Что сделает для нас мир?»

Тема юга, тесно связанная с публичными стихами Мусы Якуба, является одной из главных в творчестве поэта. Поэт, желающий видеть Север и Юг единым целым, выражает это в стихотворении «Разлука». Говоря о взаимосвязанности тем, продолжим эту последовательность и поговорим о стихотворении «Весенний привет мученикам», повествующем о событиях 20 января. Таким образом, тема мучеников проходит красной линией в нашей поэзии и находит отражение в творчестве поэта. В упомянутом стихотворении мученики вспоминаются с глубокой скорбью

Наконец, давайте поговорим о любовных стихах Мусы Якуба, которые представляют собой эпос языков. Среди его стихотворений такого рода стихотворение «Тогда ты узнаешь» – одно из самых связных стихотворений, говорящее само за себя. Здесь поэт жалуется на то, что его оценка запаздывает.Я бы сказал, что мы должны ценить все стихи и творения поэта и передавать их будущим поколениям, читая и изучая их, и мы должны сохранить бессмертие поэта

***Ключевые слова:*** *Муса Ягуб, лирика, поем, лирическая песня*

Redaksiya heyətinin üzvü fil.ü.f.d., dos. Məmmədova Elmira Kekeç Fikrət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.